Azadlıq Radiosu

DÜNYA XƏBƏRLƏRİ

# Trampdan yeni gömrük rüsumları - 10-12.5 faiz

indicə




Donald Tramp

ABŞ prezident **Donald Tramp** administrasiyası iyulun 24-də Avropa İttifaqı ölkələri, Çin və Rusiya daxil olmaqla 60 ticarət tərəfdaşından idxal olunan mallara yeni gömrük rüsumları elan edib. Məlumatı ABŞ Ticarət Nümayəndəliyinin Ofisi yayıb.

Bu qərardan öncə dünyanın demək olar ki, bütün ölkələrinə tətbiq edilən 10 faizlik qlobal rüsumların müddəti başa çatıb. Rusiya həmin siyahıda olmayan azsaylı ölkələrdən biri idi. ABŞ Ali Məhkəməsi həmin rüsumların iyulun 24-dək ləğv edilməsinə qərar vermişdi.

Yeni rüsumlar 10 faizdən 12,5 faizə qədər dəyişəcək. Administrasiya bunu həmin ölkələrin "məcburi əməyin tətbiqi ilə istehsal olunmuş malların idxalına yetərincə

qadağa qoymaması” ilə izah edib.

Məcburi əməyin məhdudlaşdırılması üçün tədbirlər görən ölkələr, o cümlədən Avropa İttifaqı üzvləri üçün rüsum dərəcəsi 10 faiz olacaq. Rusiya və Çin daxil digər ölkələrə isə 12,5 faizlik rüsum tətbiq ediləcək.

Avropa İttifaqı yeni rüsumları "xoşagəlməz sürpriz" adlandırıb. Aİ-nin xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi **Kaya Kallas** xüsusilə ittifaqın məcburi əməyin tətbiqində ittiham olunmasını əsassız saydığını bildirib. Faktiki olaraq Aİ üçün vəziyyət dəyişmir, çünki 10 faizlik rüsumlar qüvvədə qalır.

ABŞ administrasiyasının qərarına Meksika, Braziliya və Avstraliya kimi ölkələr daha sərt reaksiya veriblər. Həmin ölkələr üçün rüsum dərəcəsi 12,5 faiz müəyyən edilib.

ABŞ ilə Rusiya arasında qarşılıqlı ticarət dövriyyəsi, xüsusilə Rusiyanın 2022-ci ildə Ukraynaya genişmiqyaslı müdaxiləsindən sonra kəskin azalıb. Hazırda ildə təxminən 4 milyard dollar təşkil edir. ABŞ Rusiyadan əsasən gübrələr, nadir metallar və nüvə yanacağı idxal edir.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur